Qədimoğlu N. Üçtəpədə son döyüşün şəhidi // Xalq qəzeti. - 2023. - 15 yanvar. - № 9. - S. 7.

Vətən müharibəsində "Dəmir yumruq" olan möhtəşəm güc bizlərə təkcə qələbə sevincini yaşatmadı, həm də 30 illik ağrı-acılarımıza son qoydu. Tovuz rayonunun Aşağı Öysüzlü kəndində böyüyüb boya-başa çatan Fikrət Akif oğlu Zeynallı böyük qələbəni xalqımıza bəxş edənlərdən biri idi.

Doğma kəndində, oxuduğu məktəbdə, bitirdiyi universitetdə, çalışdığı kollektivdə və ən nəhayət, rəşadətlə vuruşduğu döyüş bölgəsində çox adi görünən bu oğlan, doğrudan da, bəlkə də tay-tuşlarından fərqlənmək arzusunda belə olmamışdı. Amma taleyi onu hər kəsdən üstün tutmaqla fərqləndirdi. Fikrətin şəhidlik zirvəsinə ucalan ömür yolu təkcə ailəsinə yox, həm də bütün el-obasına fəxr gətirəcək bir qəhrəmanlıq tarixi oldu.

O, 23 fevral 1995-ci ildə dünyaya göz açmışdı. Sovetlər dönəmində həmin gün ordu günü kimi, kişilərin bayramı kimi də qeyd edilərdi. Fikrətin dünyaya gəlişi Akif müəllimin evində əsl bayram əhvalı yaratmışdı, ailə bu günün sevincini çox böyük şükranlıqla qeyd etmişdi…

Bakı Dövlət Universitetinin fizika fakültəsini fərqlənmə diplomu ilə başa vurmuş Fikrət Azərbaycan Ordusunda bir illik xidmətini layiqincə keçmişdi. Culfa rayonunda qulluq etmiş, bölgənin sərt iqlimi və əsgər həyatının dəmir qayda-qanunları kimi sınaqlardan bacarıqla çıxmışdı. Sonra Bakıda "Veysəloğlu" Məhdud Məsuliyyətli Cəmiyyətində əmək fəaliyyətinə başlamış, burada da özünü çalışqan bir gənc kimi göstərə bilmişdi.

İkinci Qarabağ müharibəsi başlananda Fikrət döyüşlərə ilk atılanlardan olur. Füzuli və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edir, özünü fədakar, cəsur bir döyüşçü kimi tanıdır. Azğın düşmən üzərində Böyük qələbəmizi də cəbhədə qarşılayır. Amma təəsüf ki, havadarlarının dəstəyi ilə quldur əməllərindən əl çəkməyən məğlub düşmən cəbhədə ara-sıra atışmaları davam etdirirdi ki, bu üzdən də Qarabağ ərazisində yenə də üzbəüz döyüşlər olurdu.

Qələbə sevincini yaşayan minlərlə qəhrəman döyüşçü kimi, Fikrət də, ailəsi də onun geri dönəcəyi günü səbirsizliklə gözləyirdilər. Amma Xocəvəndin Üçtəpə ərazisindəki silahlı qarşıdurma Fikrətin son döyüşü oldu. Silahdaşlarından biri bildirirdi ki, noyabrın 9-da səhər tezdən düşmənlə gözlənilməz və qeyri-bərabər döyüşə girdik. Bu, Fikrət üçün son döyüş imiş. Ağır yaralansa da, arxaya aparılmasını istəmədi. Saat 15 radələrində həlak olduğunu öyrəndik. Şəhidlik zirvəsinə yüksələn Fikrət Zeynallının nəşi Tovuza gətirildi və Aşağı Öysüzlü kəndində dəfn olundu.

Bəli, Fikrət Zeynallı qısa ömründə çoxlarına örnək olan bir tale yaşadı, ən önəmlisi, çoxlarına nəsib olmayan Vətən, millət borcunu şərəflə ödəyə bildi. Məhv edilən azğın düşmənin min bir hiylə və vəhşiliklə göstərdiyi müqavimət xalqımıza yeni itkilər, kədər, hüzn də yaşatdı. Qarabağ zəfərinə aparan yolda Azərbaycan xalqı düşməni ağır məğlubiyyətə uğradarkən çoxlu şəhid verdi, yüzlərlə əsgər xəsarət aldı, qazi oldu.

Hər bir əsgəri böyüdüb ərsəyə çatdıran, qələbə öyüdü ilə cəbhəyə yola salan, sonda isə bayrağa bükülü nəşini qarşılayan valideynlərin dərdinin nə olduğunu Akif müəllim – Fikrətin atası bəlkə də hər kəsdən yaxşı bilir. Onun qənaətincə, qəhrəmanlıq göstərən, torpaqlarımızı öz qanları ilə suvaran, işğaldan azad edən, müqəddəsləşdirən Fikrət kimi şəhidlərin hər biri fiziki ölümləri ilə yeni bir qələbə tarixi yazıblar. Qəhrəman şəhid valideyni olmaq hər bir ata-ana üçün böyük təsəllidir, amma onların çəkdiyi iztirab və ağrının qarşısını almaq da çətindir.

BDU-nun professoru Cahangir Məmmədli də qəhrəman şəhidimiz atasına zəng edib hal-əhval tutanda, yəqin ki, ürəyindən bu hissləri keçirmiş və dilə gətirmişdi. Cahangir müəllimə göndərdiyi olduqca səmimi cavabda Akif müəllim yazırdı: “Fikrət kamil azərbaycanlı idi. Duruşu, oturuşu yerində olan, hər kəsə sayğı göstərən (xüsusən də uşaqları çox sevərdi) alicənab bir insan idi. Həmişə həyatda ən çətin işləri öz üzərinə götürər və öhdəsindən layiqincə gələrdi. Təəssüf ki, hələ ailə həyatı qurmamışdı və elə oğulun yadigarı qalmadı. Mən fəxr edirəm ki, Fikrətin atasıyam. Hörmətlə, Akif Zeynalov”.

Bu qısa məktubun hər kəsə söylədiyi böyük həqiqətlər var. Burada şəhid oğlu ilə, onun həyat idealları ilə fəxr edən qürurlu bir atanın dəyanətini görürük. Həm də düşünürük ki, Akif müəllim kimi ataların və müəllimlərin yetişdirdiyi, tərbiyə verdiyi oğulların Vətəni, yurdu basılmaz. Bu, baş versə belə, uzun çəkməz. Necə ki, çəkmədi də. Şəhid olmağı bacaran oğulların amalı Allahın verdiyi ömür payını gələcək nəsillərin xoşbəxtliyinə bağışlamaqdır.

Fikrət kimi oğulların Böyük qələbəmizdə payı o qədər çoxdu ki, onun hansısa bir ölçüsü olduğunu söyləmək də çətindir. Bir də təkrar qazanıla bilməyən ömürdən pay vermək hər kəsin əlində olmayan bir iş deyil! Torpağı illərlə işğal altında, düşmən tapdağında olan bir əsgər 44 gün içərisində nə edə bilərdisə, Fikrət və onun şəhidlik zirvəsinə yüksələn döyüş yoldaşları şərəflə etdilər! Qalib gəldilər, şəhidlik şərbətini daddılar.

Dövlətimiz də şəhid əsgərlərimizin hünərini unutmadı, lazımınca dəyərləndirdi. Fikrət Zeynallı “Vətən uğrunda”, “Döyüşdə fərqlənməyə görə”, “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edildi. Amma xalqın yaddaşında əbədi yaşamaq onun tale yazısı oldu.